


“Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

## BƏHMƏN ƏLƏMDARLI ƏLƏM



Ələm (Qaşqay şairi və xəttat) ləqəbli Bəhmən Moradi Ələmdarlı 1977-ci il iyunun 10-da Ələmdarlı qəbiləsində anadan olub. İbtidai və orta təhsilini Bəhmən və Səqəddə başa vurub. Sonra İsfahan Tibb Elmləri Universitetində tibb qardaşı ixtisasına yiyələnib. Şahrekord Universitetində fars dili və ədəbiyyatı üzrə magistr təhsili alıb.

Bəhmən Ələm ilk şeirini 1994-1995-ci tədris ilində orta məktəbin üçüncü sinfində oxuyarkən sinif yoldaşının qəfil ölümü ilə bağlı qələmə alıb. Hazırda təcili tibbi yardım eksperti vəzifəsində çalışır.

Bəhmənin "Kəsmə nar ağacıyam" şeirlər kitabı oxucu sevgisi qazanıb...

### QARABAĞ

Biz bu dağa dağlıyax,
Bu torpağa bağlıyax,
Qabil bilsə Qarabağ
Biz də Qara bağlıyax.

Yanma qardaş, sönər dağın,
Əngəbin olacak ağın,
Açıl gültək, dön kədərdən,
Azad olur Qarabağın...

Dağam, şaxta buran mənim,
Türk oğluyam, İran mənim.
Tükən burda Turan oğlu
Mən Turanın, Turan mənim...

## KƏRƏM MAMAĞANLI



Çağdaş Güney Azərbaycan ədəbiyyatının tanınmış yaradıcılarından olan Kərim Mamağanlı Mamağanda doğulub. Böyüyüb boya-başa çatdığı Mamağan bölgəsinin adını təxəllüs olaraq qəbul edib və bütün şeirlərini bu təxəllüslə yazır...

### Ağladım

İnqə-inqə diyər gəldim cəhana,
Didərgin halıma özüm ağladım.
Duydum cəhan batıb cəhlə çaxana,
Bu cəhli görərkən gözüm, ağladım...

Alovlandı beşik, palaz, çullarım,
Şor sulardan düşdü qorxunc yollarım,
Qatqalın dalğalar, incə qollarım,
Bacarmadım necə üzüm ağladım...

Dəli dənizlərə daldığım zəman,
İnsafsız dalğalar vermədi əman,
Onlar acımasız, mən də natəvan,
Anlaşılmaz oldu sözüm ağladım...

Oxucum ağlamaq yaraşmaz bizə,
Göz yaşından dərman olmaz dərdimizə,
Qəm qatmaq istəməm qəmlərimizə,
Qəm üstə kökləndi sazım ağladım...

Qəm kədər artıqdı, Kərim az dedi,
Vijdanım qonudan keçmə vaz, dedi,
Ürəyim dayanma, durma, yaz dedi,
Aciz qaldım, necə yazım, ağladım...

Esmira Fuad